# İbtidai siniflərdə "Həyat bilgisi" fənninin tədrisində sosioloji bilik və bacarıqların öyrədilməsi imkanları

**Elnurə Fazil qızı Səfərova**
*biologiya üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti*
**E-mail:** seferovaelnure@mail.ru
**Nazimə Nizami qızı Əliyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*

**Rəyçilər:** p.ü.f.d., dos. G.N. Hacıyeva,
p.ü.f.d., dos. H.M. Hacıyeva

**Açar sözlər:** sosial, bilik, bacarıq, cəmiyyət, ailə
**Ключевые слова:** социальное, знание, навык, общество, семья
**Key words:** sosial, knowledge, skill, society, family

Cəmiyyət, dövlət, ailə, dövlət rəmzləri, cəmiyyət üzvlərinin davranışları, hüquq və vəzifələrimiz sosioloji biliklərdən cəmlənib. Sosioloji biliklər deyəndə məhz bu anlayışlar nəzərdə tutulur. İnsanlar yer kürəsində qeyri-bərabər paylanmışlar. Onların məskunlaşmasına təbii şərait sosial-iqtisadi amillər öz təsirini göstərmişdir. Əhalinin çox hissəsi sənaye şəhərlərində, dəniz sahillərində məskunlaşmağı üstün tuturlar.

Hər bir insan sosial varlıqdır. Onun həyatının hər bir anı başqa insanlarla bağlıdır. İnsanın başqa adamlarla münasibəti, adətən qarşılıqlı xarakter daşıyır. Lakin, onların məzmunu və forması müxtəlif amillərlə, insanların şəxsiyyətləri ilə şərtlənir. Bu münasibətlərə şəxsiyyətlərarası münasibətlər deyilir. Həmin münasibətlərdən qruplar: ailə, kollektiv, sinif, briqada, manqa və s. yaranır.

Şəxsi qarşılıqlı münasibətlər müxtəlif formalarda: tanışlıq, yoldaşlıq, dostluq, qohumluq münasibətlərində təzahür edir. Bu münasibətlər qarşılıqlı hörmət, rəğbət, sevgi nəticəsində daha da inkişaf edir. İnsan həyatının çox mühüm hissəsi ailədə, həyat yoldaşı, uşaqlar və qohumlarla ünsiyyətdə keçir. Ailənin bütün vəzifələri onun üzvlərinin ünsiyyəti formasında həyata keçirilir. Ünsiyyətin əsas formalarından biri nitqdir.

Cəmiyyət — insanların birliyi olub, özündə cəmiyyətin siyasi, iqtisadi, sosial və mədəni həyatını birləşdirən qeyri-dövlət strukturudur. Cəmiyyət üzvlərinin davranışı məsələsi də vacib məsələlərdən hesab olunur. İbtidai sinifdən balaşlayaraq

— Biz necə davranmalıyıq?
— Yanlış davranışlar
— Doğru davranışlar
— Düzgün etik danışıq və s. kimi sosioloji biliklər şagirdlərə aşılanır.

Ünsiyyət mədəniyyəti insan münasibətlərinin daxili gözəlliyində ifadəsini tapır. Nəzakətlilik, təmkinlik, prinsipiallıq, güzəştə getmə, mehribanlıq, xeyirxahlıq, tərəf-müqabili dinləmək bacarığı və başa düşmək arzusu, onun zövqünə, fikirlərinə, ovqatına hörmətlə yanaşmaq, sevinc və kədərini anlamaq, ürəyi yanmaq, dərdinə şərik olmaq və b. mədəniyyətin əlifbasıdır. Ünsiyyət mədəniyyəti insanların qarşılıqlı münasibəti prosesində formalaşır. Ailə öz çərçivəsində qapanıb qaldıqca ərin də, arvadın da, uşaqların da ünsiyyət mədəniyyəti məhdudlaşır. Ailədaxili və ailədənkənar ünsiyyətin məzmunu və rəngarəngliyinə həmişə diqqət yetirilməli-

dir. Ailə cəmiyyətin rüşeymini təşkil edir. O, ictimai həyatın mədəni səviyyəsinin yüksəldilməsində və inkişafında müstəsna rolu vardır. Azad, müstəqil respublikamızda ailə dövlət tərəfindən mühafizə edilir. Burada ailəyə və onun uşaqlarına qayğı göstərilir. Lakin burada ailə funksiyaları, vəzifələri də müəyyənləşdirilmişdir:

— insan nəslinin davam etdirilməsi,

— təsərrüfat-iqtisadi,

— tərbiyəvi (şəxsiyyətin formalaşdırılması),

— emosional və s. funksiyaların məzmununa bir sıra amillər təsir edir: ailəyə cəmiyyət tərəfindən verilən tələblər, ailə hüququ, əxlaq normaları və cəmiyyətin ailəyə göstərdiyi real yardım.

Sosial normalar içərisində ailə normaları xüsusi yer tutur. Ailə normaları sosial normaların hər bir növünün, adət-ənənələrin ailə ilə bağlı bütün tələblərini özündə birləşdirir. Ailə normalarını öz obyektinə görə bir neçə qrupa bölürlər:

1. Ailə üzvlərinin əmlak və başqa maddi nemətlər sayəsində münasibətlərini tənzim edən normalar.

2. Onların ünsiyyətini və şəxsiyyətlərarası münasibətlərini tənzim edən normalar.

3. Ailə üzvlərindən hər birinin – atanın, ananın, oğulun, qızın ailəyə, bütövlükdə cəmiyyətə münasibətlərini tənzim edən normalar.

Birinci qrup ailə normaları ev əşyalarından, büdcədən hamının bərabər hıquqlu olması, ev əşyalarından, alətlərdən, cihazlardan hamının istifadə etməsi və onlara qənaətcil, mühafizəkar münasibətin bəslənməsi və s. aiddir. İkinci qrup ailə normaları ailə üzvlərarası münasibətlərdir ki, bura böyüyə hörmət, kiçiklərə qayğı göstərilməsi, hamının bərabərliyi, azadlığı, qarşılıqlı hörmət şəraitinin yaradılması və s. aid edilir. Ailədə ayrı-ayrı cinslər arasında, böyüklə kiçiklər arasında, qarşılıqlı hörmətin gözlənilməsi və başqa məsələlər də aid edilir. Ailədə hər kəs öz borcunu dərk edir və onu həyata keçirməyə səy göstərir. Ailə hissi ata, ana və uşaqların gündəlik ünsiyyəti prosesində yaranır. Onun formalaşmasında ailə ənənələri mühüm rol oynayır. Ailə ənənələrinin qaynaqlarını xalq ənənələri təşkil edir. Onlar hər bir ailənin həyatında müxtəlif formalarda özünəməxsus adətlər, bayramlar, mərasimlər kimi ifadə olunurlar. Buradan da üçüncü qrup ailə normalarının həyata keçirilməsi formalaşır. Belə ki, ölkənin, bölgənin adət-ənənələri, bayram və mərasimləri ailələrdə qeyd edilir. Rayon, kənd, respublika səviyyəsində keçirilən hər bir bayram, tarixi günlər, tədbirlərdə ailələr də iştirak edir və cəmiyyətin sağlam ailə qurumu formalaşır (3, s. 95).

Ailə sosial qrup, kollektiv kimi o zaman fəaliyyət göstərir ki, onun həyatı düzgün təşkil olunsun, normal idarə edilsin. Bu da ailənin başçısı ilə bağlıdır. Uşaqların ən böyük tərbiyəçisi ailədir, xüsusilə ana və atadır. Buna görə də ailədə elə sağlam psixoloji şərait yaratmaq lazımdır ki, ailə üzvlərinin nümunəsi əsasında körpələr tərbiyə olunsunlar. Onlar cəmiyyətə daxil olduqda qüsurlu davranış və hərəkətə yol verməsinlər. Ailə quran hər bir qız bilməlidir ki, toydan sonra onu nələr gözləyir: ailənin böyük üzvləri ilə uyğunlaşmaq, yola getmək, ərinə hörmət göstərmək, övlad dünyaya bəxş etmək, onu bəsləmək, tərbiyə edib normal şəxsiyyət kimi yetişdirmək və s. Ailə quran hər bir oğlan da dərk etməlidir ki, ailə qurmaqla öz məsuliyyətini artırmışdır. Belə ki, ailənin mənzil şəraitini qaydaya salmalı, məişətini qurmalı, sağlamlıq və istirahətini təmin etməli, büdcənin əldə edilməsini nəzərə almalıdır. Bütün bunları həyata keçirməyi bacaran hər kəs ailə qura bilər və onu axıra kimi möhkəm saxlamağa nail olar.

Şagirdlərimizin gələcəyə yararlı şəxsiyyət kimi yetişmələrini istəyiriksə, ən əsas həyatda ən vacib xüsusiyyətin - dəyərli insani keyfiyyətlərə yiyələnmək olduğunu öyrətmək lazımdır. Müxtəlif mövzular keçdikcə, həyatla inteqrasiya edərək əxlaqi dəyərləri öyrətməli, ailə, yaşlı-

lara hörmət kimi insani dəyərlərə üstünlük verməli, bu xüsusiyyətləri onların hər yaşda düzgün bir vətəndaş olmaqlarına səbəb olacağına diqqət etməlidir hər bir müəllim, tədris etdiyi fəndən asılı olmayaraq. Aşağı siniflərdən şagirdlər artıq bu keyfiyyətlərə yiyələndikcə hansı davranışın düzgün olub-olmadığını biləcək, yoldaşlarına və ətrafındakı insanlara laqeyd olmamağı öyrənəcəklər. Bununla yanaşı, düzgün mənəvi keyfiyyətlərə yiyələnmiş insan Vətənpərvər ruhlu, vətənini, yurdunu sevən şəxsiyyət kimi formalaşacaqdır. Ümumtəhsil məktəblərində tədris edilən. Həyat bilgisi fənni, eləcə də dərsdənkənar işlər və məktəbdənkənar tərbiyəvi tədbirlər şagirdlərin sosial bacarıqlarının formalaşdırılmasında mühüm rol oynayır. Sosial bacarıq olmadan qazanılan biliyin də əhəmiyyəti ola bilməz və insanın inkişafını təmin edə bilməz. Bu mənada yetişən nəslin, xüsusilə, kiçik yaşlı məktəblilərin sosial bacarıqlarının inkişafı, onların mənəviyyatca bütövləşdirilməsi üçün mühüm aktuallıq kəsb edir (5, s. 110).

Həyat bilgisinin tədrisində “Sosioloji bilik və bacarıqlar”ın öyrədilməsi artıq ibtidai siniflərdən başlanır. Bir neçə mövzuda sosioloji biliklər mənimsənilir və bacarıqlar aşılanmış olur. Bunlar aşağıdakılardır: I və II siniflərdə “Ailə” bəhsi altında “Ailə”, “Kollektiv”, “Məktəb qaydaları”, “Gün rejimi” mövzuları, “Davranışlar” bəhsi altında “Biz necə davranmalıyıq”, “Yanlış davranışlar”, “Yaxşı xüsusiyyətlər”, “Xoşagəlməz xüsusiyyətlər”, “Din”, “İnsanlara hörmət və qayğı” mövzuları, “Dövlət” bəhsi altında “Hüquqlar”, “Dövlət rəmzləri”, “Pullar”, “Büdcəni qoruyaq” mövzuları şagirdlərə müxtəlif üsullarla öyrədilməklə onlarda sosial bilik və bacarıqlar aşılamış oluruq. III sinifdə “Doğma məktəbimiz”, “Dəyərlər” başlığı altında bir neçə mövzu məhz sosioloji biliklərin öyrədilməsinə yönəlmiş dərslərdir. IV sinifdə artıq sosioloji biliklər daha da genişləndirir. Burda dövlət anlayışı daha geniş izah edilir. Dövlət orqanları, dövlət büdcəsi, vergi, sığorta kimi anlayışlar artıq şagirdin aktiv lüğət fondunda yer almış olur (4, s. 69).

Yaşadığımız dünya elə yaranışdan gözəldir və öz gözəlliyinə insanları heyran etmişdir. İnsanlar bu gözəl dünyanı daha da gözəlləşdirməyə, öz zövqləri ilə bəzəməyə can atmışlar. Quraşdırma, oxşatma, bənzətmə, insanın xilqətindədir. Tətbiqi sənət növləri, memarlıq, heykəltəraşlıq da məhz bu meylin nəticəsində yaranmışdır. Sonralar incəsənət əsərlərində inkişaf etmiş və ən qüdrətli sivilizasiyanın əsas göstəricilərindən birinə çevrilmişdir. İncəsənətdə varislik əlaqəsi olmuş, indi də vardır. Bu əlaqələrin nəticəsidir ki, dünya mədəniyyəti indiki səviyyəsinə yüksələ bilmişdi. İncəsənət əsəri milli sərvətdir, onu qoruyub saxlamaq vətənin hər bir vətəndaşının müqəddəs işidir.

Azərbaycan xalqının bədii təfəkkür və yaradıcılığına ölkənin gözəl təbiəti, iqlimi, təbii sərvətlərinin zənginliyi də böyük təsir göstərmişdir. Ölkəmizin müxtəlif sənət növlərinin hər biri ayrı ayrılıqda uzun və mürəkkəb inkişaf yolu keçməsinə baxmayaraq, birlikdə vəhdət təşkil edərək Azərbaycan incəsənəti və mədəniyyəti haqqında tam təsəvvür yaratmağa geniş imkan verir. Azərbaycan incəsənəti ölkəmizin təbiəti kimi rəngarəng, dolğun və zəngindir.

Azərbaycan xalqının zəngin yaradıcılıq çeşməsində ən mühüm yerlərdən birini onun həyat və məişəti, gündəlik güzəranı ilə bağlı olan xalq sənətləri tutur. Ən qədim dövrlərdən zəmanəmizədək davam edən bu sənət növü xalqın geyimindən tutmuş müxtəlif təsərrüfat məmulatı və bəzəyinə qədər böyük bir sahəni əhatə edir.

Azərbaycan ərazisində qazıntılar zamanı tapılmış maddi-mədəniyyət nümunələri göstərir ki, əcdadlarımız hələ eramızdan əvvəl II minillikdə tuncdan zərif formalı qablar, xəncərlər, baltalar, kəmərlər və s. zinət şeyləri düzəldib öz həyat və məişətində istifadə etmişlər. Bunlar isə misgərlik və zərgərlik kimi sənət növlərinin qədimliyindən xəbər verir.

Xalq yaradıcılığının tarixi, etnoqrafik və bədii xusüsiyyətləri öz əksini geyimlərdə tapır. Bu xüsusiyyət həm müəyyən formalı geyim və onun bəzəklərində və həm də bədii tikmə, to-

xuma və toxuculuqda özünü büruzə verir. Misdən, tuncdan, qızıldan düzəldilmiş ev avadanlığının və zinət əşyalarının üzərinə həkk olunmuş müxtəlif rəsmlər Azərbaycanda hələ qədim zamanlarda təsviri sənətin mövcud olduğunu sübut edir. Azərbaycan qədim zamanlardan bəri təsviri sənət əsərləri ilə yanaşı, xalq sənətinin bir qolu olan memarlıq əsərləri ilə də zəngindir. Təsviri sənətin əsas növlərindən biri heykəltaraşlıqdır. Burada insan və ya hər hansı təsvir obyekti həcmli yaradılır. Adətən heykəllər gil, mum, daş, ağac, plastilin, metal və digər materiallardan hazırlanır (2, s. 77).

Zəngin mədəni irsə malik olan Azərbaycan xalqının Vətəni Odlar yurdu, eyni zamanda sehrkar musiqi diyarı kimi də məşhurdur.

Dünya musiqi mədəniyyəti xəzinəsini öz nadir inciləri ilə zənginləşdirən Azərbaycan musiqisinin çoxəsrlik ənənələri vardır. Bu ənənələri nəsldən-nəslə yaşadaraq böyük və zəngin bir irs yaradan xalq musiqi yaradıcılarının Azərbaycan musiqisinin inkişafında böyük xidmətləri olmuşdur. Azərbaycan milli musiqi sənətində xalq mahnıları, rəqslər, aşıq yaradıcılığı da özünəməxsus yer tutur. Qədim zamanlardan milli musiqimiz ədəbiyyatla birgə inkişaf etmişdir. Məsələn, muğam Şərq poeziyası ilə birgə inkişaf etmişdir. Belə ki, muğam ifa olunarkən xanəndələr Azərbaycan xalqının Nizami, Xaqani, Füzuli, Nəsimi kimi qüdrətli şairlərinin qəzəllərini oxumuşlar. Milli poeziyanın janrları olan qoşma, müxəmməs, ustadnamə, qıfılbəndlə yanaşı, onun poetik formaları olan gəraylı, divani, qoşma, təcnis aşıqların sevimli formalarıdır (1, s. 89).

Qocalara hörmət etməyin vacibliyini göstərən Peyğəmbər «Xeyir-bərəkət qocalardadır» deyirdi. Onun hədislərində vətənə məhəbbət, vətəni sevmək və onu qorumaq, qonşu ilə yaxşı dolanmaq, kasıblara əl tutmaq, xeyirxah olmaq, həsəd və paxıllığın pis əməl olduğunu insanlara çatdırmaq əsas məqsəddən biridir. İnsanlara qənaətlə dolanmağı məsləhət görür. Qənaət etməyi bacaran şəxs sabahını da düşünən şəxsdir. Onun fikrincə ən yoxsul adam kasıb olan yox, tamahkar olandır. Uzaqgörən, iti ağıl sahibi peyğəmbər deyir: «Qənaətcillik güzəranın, camaatla mehriban rəftar ağılın, ağıllı sual isə elmin yarısıdır». Bir sözlə, islamın özülləri olan «Qurani-Kərim» vasitəsilə Məhəmməd peyğəmbərimiz humanist, bəşəri ideyaları təbliğ və müdafiə edir, insanlarda ən nəcib sifətləri formalaşdırmağa çalışır, onları xeyirxahlığa, yaxşılığa, səmimiyyətə, dostluğa, ədalətə, tədbirliliyə və s. səsləyir.

**Məqalənin aktuallığı.** Milli-mənəvi dəyərlər, cəmiyyət, ailə, düzgün davranışlar və s. kimi bilik və bacarıqların aşağı sinif şagirdlərinə aşılanması aktual məsələlərdəndir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə göstərilmiş siniflər üzrə verilmiş mövzularda sosial bilik və bacarıqların öyrədilməsi imkanları daha geniş və məqsədəuyğundur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ibtidai sinif və "Həyat bilgisi" fənnini tədris edən müəllimlər istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Hacıyeva H.M. və b. Həyat bilgisinin əsasları. Bakı, 2014, 204 s.
2. Hacıyeva H.M. və b. Həyat bilgisinin tədrisi metodikası. Bakı, 2014, 187 s.
3. Hacıyeva H.M., Axundova S.L. Həyat bilgisinin tədrisində əyləncəli oyunlar vasitəsilə fənlərarası əlaqənin yaradılması: Metodik vəsait. Bakı, 2006, 105 s.
4. Ümumtəhsil məktəblərində İbtidai siniflərin Həyat bilgisi dərslikləri və müəllim üçün metodik vəsaitləri. Bakı, 2008-2011-ci illər.
5. E.F.Səfərova. Biologiyanın tədrisində həyati bacarıqların aşılanması ilə şagird şəxsiyyətinin formalaşdırılması: Dərs vəsaiti. Bakı, 2018.